# Azərbaycan Ordusunun zəfər yürüşü davam edir




**Cəbhə xəttində ölkəmizə qarşı ardıcıl olaraq təxribatlar törədən, humanitar atəşkəsi pozmaqla Azərbaycanın şəhər və kəndlərini atəş altında saxlayan Ermənistan faşist əməllərindən əl çəkmir. Amma Azərbaycan Ordusunun əks-həmləsindən əvvəl "Qarabağ Ermənistandır və nöqtə" deyərək yeni torpaqların qəsb iddiasını gizlətməyən primitiv düşüncəli, faşist xislətli Nikol Paşinyan bu gün silahlı qüvvələrimizin güc-qüdrəti qarşısında təslim olmaq, işğalçılıq siyasətini dayandırmaq əvəzinə, dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara utanıb-qızarmadan heç bir düşüncəyə, məntiqə əsaslanmayan yalan məlumatlar verir, yeri gələndə isə "ağalarına" yalvarır, himayədarlarından aman diləyir. Halbuki, Nikol Paşinyan Şuşada yallı gedəndə, separatçı rejimin qondarma "prezidentinin" andiçmə mərasimində iştirak edəndə xalqımızın səbir kasasının bir gün daşacağını bilməli idi.**

Hələ Aprel döyüşləri və Tovuz hadisələri zamanı Azərbaycan vətəndaşlarının nümayiş etdirdiyi birlik məcburi köçkünlərimizdə öz əzəli, dədə-baba torpaqlarına mütləq geri qayıdacaqları əminliyi yaratmışdı. Son erməni təxribatlarından sonra böyük qayıdışın reallaşmasını şərtləndirən mövcud şərait də bu məntiqin bariz ifadəsi idi. Prezident İlham Əliyevin sentyabrın 27-də xalqa müraciəti, Ali Baş Komandan tərəfindən hərbi vəziyyətin və qismən səfərbərliyin elan edilməsi, gənclərin böyük əhval-ruhiyyə ilə cəbhəyə yollanması Azərbaycan xalqının vətənpərvərlik hissinin ən yüksək səviyyədə olduğunu bir daha göstərirdi.

Sentyabrın 27-də səhər saatlarından etibarən cəbhəboyu yaşayış məntəqələrimizin ağır artilleriyadan atəşə tutulması ilə müşahidə olunan erməni ordusunun xain hücumu da düşmənin əsl üzünü, faşist mahiyyətini bir daha büruzə verdi. Həmin gündən etibarən Azərbaycan Silahlı Qüvvələri əks-hücum əməliyyatlarına başladı. Düşmən ağır itkilər verərək, geri çəkilməyə məcbur olsa da, ağır artilleriyadan dinc sakinlərə atəş açmaq, dağıntılar törətmək, infrastruktura ziyan vurmaq kimi çirkin əməllərindən əl çəkmədi. Naftalan, Tərtər, Ağdam, Daşkəsən, Gəncə və digər şəhərlərə qarşı edilən terror nəticəsində çox sayda dinc sakin qətlə yetirildi, yaralandı, sosial infrastruktur dağıdıldı.

Gəncədə törətdiyi terror aktları isə Ermənistanın faşist mahiyyətini bir daha nümayiş etdirdi. Azərbaycanın bu qədim şəhərinə yönələn vandalizm, barbarlıq aciz vəziyyətə düşən Ermənistanın cəbhədəki məğlubiyyətinin heyfini dinc insanlardan alması məqsədi daşıyırdı. Ölənlər və yaralananlar arasında körpələrin olması isə düşmənin faşist xislətinin, insanlığa sığmayan əməllərinin göstəricisidir.

Son rəsmi məlumata görə, sentyabrın 27-dən hazırkı vaxtadək erməni tərəfinin yaşayış məntəqələrimizi atəşə tutması nəticəsində 60 mülki şəxs həlak olub, 270 nəfər yaralanıb. Bundan başqa 327 mülki obyekt, 90 yaşayış binası və 1704 yaşayış evi yararsız hala düşüb.

Lakin bütün bunlar xalqımızı, xüsusən, cəbhə bölgəsində məskunlaşan əhalimizi qətiyyən narahat etmir. Çünki onların Azərbaycan Prezidentinə, ordumuza inamı sonsuzdur. Ali Baş Komandanın tapşırıqlarını şərəflə yerinə yetirən silahlı qüvvələrimiz də tarixi zəfər yolunda inamla irəliləyir. Düşməni işğal altında olan torpaqlarımızdan təmizləmək əmrini icra edən ordumuz xalqımızı yeni-yeni qələbələrlə sevindirir. Dövlətimizin başçısı İlham Əliyevin dediyi kimi: "Erməni işğalına son qoyulmalıdır və qoyulacaq! Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

Xatırladaq ki, sentyabrın 27-də Azərbaycan Ordusu əks-hücum əməliyyatı başlayandan sonra Füzuli-Cəbrayıl istiqamətində Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Abdurrəhmanlı, Böyük Mərcanlı və Nüzgar kəndləri işğaldan azad edilib. Bundan başqa, Ağdərə və Murovdağ istiqamətində ermənilərin bir neçə postu tamamilə darmadağın olunub. Silahlı qüvvələrimizin bölmələri cəbhənin Goranboy istiqamətindəki strateji yüksəkliklərdən birini – Murovdağ silsiləsinin Murov yüksəkliyini azad edib. Azərbaycan ordusu Talış kəndi ətrafında bir neçə strateji yüksəkliyi də Ermənistanın işğalçı qüvvələrindən təmizləyib.

Oktyabrın 3-də Azərbaycan Silahlı Qüvvələri strateji cəhətdən əhəmiyyətli daha bir yaşayış məntəqəsini – dövlət başçısının həmin gün Suqovuşan tarixi adını qaytardığı Madagiz kəndini yağı tapdağından xilas edib. Həmin gün Tərtər rayonunun Talış, Cəbrayıl Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq və Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndləri də ordumuz tərəfindən işğalçılardan təmizlənib.

Oktyabrın 4-də Azərbaycan Ordusu Cəbrayıl şəhərini və bu rayonun doqquz kəndini – Karxulu, Şükürbəyli, Yuxarı Maralyan, Çərəkən, Daşkəsən, Horovlu, Dəcəl, Mahmudlu, Cəfərabad yaşayış məntəqələrini, sonrakı gün – oktyabrın 5-də isə Cəbrayılın Şıxalıağalı, Məzrə və Sarıcalı kəndlərini işğalçılardan təmizləyib. Oktyabrın 9-da silahlı qüvvələrimiz strateji baxımdan mühüm əhəmiyyət daşıyan tarixi adı Ağaoğlan olan Hadrutu düşmən işğalından azad edib.

Oktyabrın 17-də isə Prezident İlham Əliyev xalqa müraciətində Füzuli rayonunun Qoçəhmədli, Çimən, Musabəyli, Pirəhmədli, Dədəli, Işıqlı, Cuvarlı kəndləri və Füzuli şəhərinin işğaldan tam azad edildiyini açıqlayıb. Əməliyyatlar nəticəsində Ermənistan ordusunun mühəndis-istehkam rəisi, polkovnik Aşot Qazaryan məhv edilib.

Oktyabrın 16-da gün ərzində və oktyabrın 17-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin 1-ci motoatıcı alayının müdafiə zolağında ehtiyatdan çağırılan 300 nəfərədək hərbi vəzifəli şəxs döyüş mövqelərini özbaşına tərk edərək geri çəkilib. Azərbaycan Ordusu tərəfindən sutka ərzində həyata keçirilən əməliyyatlar nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 7 ədəd T-72 tankı, 2 ədəd "Qrad" YARS, 8 ədəd D-30 və 1 ədəd D-202 haubitsa topları, döyüş sursatı ilə yüklənən 10 yük maşını və 7 digər avtomobil texnikası sıradan çıxarılıb.

Ümumiyyətlə, 27 sentyabr tarixindən oktyabrın 18-nə qədər Ermənistan ordusuna məxsus 234 tank, 49 ədəd piyadanın döyüş maşını, 16 ədəd özüyeriyən artilleriya qurğusu, 190 ədəd müxtəlif çaplı toplar, 2 ədəd "Uraqan" sistemi, 1 ədəd "TOS-1a" odsaçan sursatı, 2 ədəd "Elbrus" əməliyyat-taktiki raket kompeksi, 1 ədəd "Toçka-U", 2 ədəd "S-300" kompleksi, 35 ədəd "Osa" zenit raket kompeksi, 3 ədəd "Tor" zenit-raket kompleksi, 5 ədəd "Kruq" və "Kub" zenit raket kompleksi, 9 ədəd radioelektron mübarizə sistemi, 196 yük avtomobili məhv edilib, 36 tank, 24 ədəd piyadanın döyüş maşını, 98 ədəd yük avtomobili isə qənimət kimi ələ keçirilib.

Füzuli-Cəbrayıl istiqamətində gedən döyüşlər zamanı son iki gündə dəqiq zərbə ilə Ermənistan silahlı qüvvələrinə məxsus 3 ədəd "Tor-M2KM" zenit-raket kompleksi sıradan çıxarılıb. Cəbhənin Ağdərə-Ağdam istiqamətində gedən döyüşlər zamanı Azərbaycan Ordusunun mövqelərini atəşə tutan Ermənistan silahlı qüvvələrinə məxsus 1 ədəd "Qrad" yaylım atəşli reaktiv sistemi, "S-125" zenit-raket kompleksi məhv edilib.

Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 17-də isə xalqa müraciət edərək deyib: "Şanlı Azərbaycan Ordusu öz xilaskarlıq missiyasını uğurla davam etdirir. Son günlər ərzində mən xalqıma xəbər verərək, yeni azad edilmiş kəndlərin adlarını açıqlamışdım. Bu gün də böyük məmnunluq hissi ilə, böyük sevinc hissi ilə azad edilmiş növbəti yaşayış məntəqələrinin adlarını əziz xalqıma çatdırmaq istəyirəm. Bu gün Füzuli rayonunun aşağıdakı yaşayış məntəqələri işğalçılardan azad edilib – Qoçəhmədli kəndi, Çimən kəndi, Cuvarlı kəndi, Pirəhmədli kəndi, Musabəyli kəndi, İşıqlı kəndi, Dədəli kəndi və Füzuli şəhəri. Füzuli şəhəri işğalçılardan azad edilib, Füzuli bizimdir, Qarabağ Azərbaycandır!"

Dövlətimizin başçısı müraciətində bildirib ki, bu gün tarixi bir gündür. On yeddisi oktyabr nəinki füzulililərin xatirəsində, eləcə də Azərbaycan dövlətinin tarixində əbədi qalacaq: "Bu gün biz hamımız, bütün Azərbaycan xalqı xalqımızın, dövlətimizin ən parlaq səhifəsini yazırıq, birlikdə yazırıq. Biz bu gün həmrəylik, qarşılıqlı dəstək, birlik göstərərək bu şanlı tarixi yazırıq. Biz xoşbəxtik ki, bu anları yaşayırıq. Ancaq bu anları səbirsizliklə gözləyən, həyatdan gedən on minlərlə bizim qaçqın, köçkünümüz əfsuslar olsun ki, bu günləri görməyib. Ancaq bu gün əminəm ki, onların ruhu şaddır. Çünki onların doğma dədə-baba torpaqları işğalçılardan azad edilib".

Oktyabrın 18-də isə Ermənistan silahlı qüvvələri növbəti dəfə humanitar atəşkəs rejimini kobud şəkildə pozaraq Cəbrayıl şəhərinin ətraf ərazilərini, eləcə də bu rayonun Araz çayı boyu yerləşən, işğaldan azad olunan kəndlərini gecə ərzində minaatan və artilleriya qurğularından atəşə tutub. Azərbaycan Ordusunun Füzuli istiqamətində uğurlu döyüş əməliyyatları zamanı işğalçıların hərbi hissəsi bölmələrimiz tərəfindən ələ keçirilib. Cəbhənin Cəbrayıl istiqamətində ordumuzun mövqelərinə aviazərbələr endirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinin Su-25 hücum təyyarəsi növbəti dəfə Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən sıradan çıxarılıb. Azərbaycan Ordusu işğaldan azad olunan Cəbrayıl rayonunda yerləşən Xudafərin körpüsünə Azərbaycan bayrağı sancıb.

Prezident İlham Əliyev oktyabrın 19-da özünün "Twitter" səhifəsində Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Hasanlı, Alıkeyxalı, Qumlaq, Hacılı, Göyərçin Veysəlli, Niyazqulular, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndlərinin işğaldan tam azad edildiyini açıqlayıb.

Oktyabrın 18-də və 19-na keçən gecə isə cəbhənin Ağdərə-Ağdam, Füzuli-Hadrut-Cəbrayıl istiqamətlərində, eləcə də Araz çayı boyu müqavimət göstərməyə cəhd edən düşmənə qarşı döyüş əməliyyatları davam edib. Düşmən tərəfindən bölmələrimizin müdafiə mövqeləri atıcı silahlar, minaatanlar və toplardan atəşə tutulub. Azərbaycan Ordusunun həyata keçirdiyi əməliyyatlar nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 2 ədəd "Qrad" YARS, 1 ədəd D-30 və 1 ədəd D-202 haubitsa topu və 11 avtomobil texnikası sıradan çıxarılıb.

Bu gün Ermənistan və ona havadarlıq edən qüvvələr ordumuzun güc-qüdrətini artıq yaxşı bilir. Düşmən aydın şəkildə başa düşür ki, müasir Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır və işğal altındakı torpaqlarımızın bütövlükdə qaytarılacağı və ya Ermənistanın buna məcbur ediləcəyi gün çox yaxındadır.

Belə bir orduya sahib olan Azərbaycan rəhbəri möhtərəm İlham Əliyev uzun illər ən yüksək tribunalardan daim bəyan edib ki, əgər münaqişənin həllində sülh danışıqları səmərə verməsə, işğal altındakı torpaqlarımız hərbi yolla azad ediləcək.

Artıq xalqımız o günü yaşayır. Azərbaycan Ordusunun vətənpərvər, cəsur və mərd oğulları tərəfindən cəbhədə bir-birinin ardınca uğurlar əldə edilir, düşmənlə təmas xəttində döyüş şücaəti, qətiyyət göstərilir, xalqımızın illərdən bəri gözlədiyi böyük qələbə salnaməsinin tarixi səhifələri yazılır. Hər bir vətəndaşımızda olan ruh yüksəkliyi, orduya inam, qələbəyə əminlik hissi sarsılmaz Azərbaycan Ordusunu yeni-yeni qələbələrə ruhlandırır. Hamı inanır, əmindir ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə silahlı qüvvələrimiz tez bir zamanda yağı düşməni doğma torpaqlarımızdan qovacaq, bizə zəfər bayramı, qələbə sevinci yaşadacaq.

*Vaqif BAYRAMOV,*
*"Xalq qəzeti"*